

# 15 yaşdan başlayan yaradıcılıq

## O, əsil vətəndaş ömrü yaşadı

**Sənət yoldaşları onun haqqında danışanda "Ramiz Mustafayev çox məhsuldar bəstəkar idi. O, xüsusilə iri həcmli, monumental musiqi janrlarında yazmağı çox sevirdi. Onun yaradıcılığına çoxjanrlılıq xas idi. Elə bunun üçün də bəstəkarın yaradıcılığında mühüm yeri musiqili-səhnə əsərləri, simfonik və vokal-simfonik bəstələmələr başlıca yer tutur"- deyə yaradıcılığını dəyərləndirirlər.**

R.Mustafayev 50 illik yaradıcılığı dövründə 5 opera, 5 operetta, 9 oratoriya, 8 simfoniya, 5 vokal-simfonik poema, 500-dən artıq mahnı və romans bəstələyib. Bu baxımdan müasir Azərbaycan bəstəkarları arasında müxtəlif musiqi janrlarında çoxsaylı iri həcmli əsərlər müəllifi kimi o, ilk sıralarda durur. Bu isə Ramiz Mustafayevin daim çalışan, yazıb-yaradan, arayıb-axtaran bir sənətkar olduğunun göstəricisidir.

### TEATR, VOKAL SƏNƏTİ, BƏSTƏKARLIQ

R.Mustafayevin musiqili-səhnə, vokal-simfonik əsərlərə meyili onun keçdiyi mürəkkəb, lakin maraqlı həyat yolu ilə də ciddi bağlıdır. O, hələ 15 yaşında ikən özfəaliyyət dram dərnəklərində iştirak edib. Aktyorluq sahəsində bacarığı onu teatr texnikumunun aktyorluq şöbəsinə gətirib çıxarıb. Bu texnikumu bitirdikdən sonra əvvəl Gənc Tamaşaçılar Teatrında, sonra isə Azərbaycan Dövlət Akademik Dram Teatrında çalışıb. Eyni zamanda, vokal sənətinə də böyük həvəs göstərib. Gənc yaşlarından gözəl tembrli vokal səsə malik olduğundan, Azərbaycan Dövlət Konservatoriyasının vokal şöbəsinə daxil olaraq professor Bülbülün sinfində oxuyub. Təhsil aldığı illərdə bəstəkarlığa da xüsusi maraq göstərib. Vokal sinfini bitirdikdən sonra həmin Konservatoriyanın artıq bəstəkarlıq şöbəsinə - professor Boris Zeydmanın sinfinə daxil olub və bu sənət üzrə ali musiqi məktəbini əla qiymətlərlə başa vurub. Tələbəlik illərində skripka ilə fortepiano üçün sonata, skerso, violo üçün variasiyalar, simli kvartet, simfonik orkestr üçün uvertüra, neçə-neçə mahnı və romanslar yazıb.

Bəstəkarın diplom işi Səməd Vurğunun "Fərhad və Şirin" pyesi əsasında "Şirin" operası olur. Gənc bəstəkar müstəqil yaradıcılıq yoluna qədəm qoyduqdan sonra onun yaradıcılığında opera və operetta janrı xüsusi əhəmiyyət kəsb edir. Yazdığı beş opera arasında ona uğuru daha çox "Vaqif" operası gətirir. Səməd Vurğun poeziyası və dram əsərləri onu həmişə cəlb edirdi. O, hətta "Vaqif" dramında Əli bəy rolunun ifaçısı da olmuşdu. "Bir tamaşada oynayan görkəmli aktyorumuz İsmayıl Dağıstanlı gələ bilmədiyindən, rejissor Əli bəy rolunda çıxış etməyi mənə tapşırdı. Əvvəlcə mən bu rolda oynamağa tərəddüd etdim. Doğrusu, bu mürəkkəb obrazın öhdəsindən gələcəyimə inanmırdım. Lakin rejissor və həmkarlarım məni ruhlandırıb həvəsə gətirdilər. Razılaşdım.

"Vaqif" dramı ilə mən ilk dəfə belə qaynayıb qarışdım. Elə o vaxtlar fikirləşdim ki, bu əsəri operaya çevirmək gözəl olar"- deyə bəstəkar xatırlayırdı.

1960-cı ilin 23 iyununda "Vaqif" operasının Azərbaycan Dövlət Akademik Opera və Balet teatrında ilk tamaşası keçirilir. Bu səhnə əsəri iki il sonra Moskvada bəstəkarların Ümumittifaq müsabiqəsində laureat olur.

1962-ci ildə R.Mustafayev görkəmli satirik şair M. Ə. Sabirin 100 illik yubileyinə "Xan və əkinçi" opera səhnəsini, 1964-cü ildə şair Teymur Elçinin librettosu əsasında "Tərs keçi" adlı birpərdəli uşaq operasını yazır. Bu dövrdə gənc bəstəkarın opera sahəsindəki tapıntıları onun 1964-cü ildə şair Ənvər Əlibəylinin "Polad" poeması əsasında yazdığı radio-operada özünü bariz şəkildə nümayiş etdirir. Operada bəstəkarın yaşadığı dövrün müasir insanlarının həyatından söz açılır. 1967-ci ildə isə bəstəkar operettaya müraciət edir. Beləliklə, Azərbaycan Dövlət Musiqili Komediya Teatrında tamaşaya qoyulan "Axırı yaxşı olar" operettası (libretto Rəfiq Xəndan Zəkanındır) anşlaqla qarşılanır. R.Mustafayev baletdən başqa bütün janrlara müraciət edib.



### RƏŞİD BEHBUDOVUN MÖHÜRÜ

1958-ci ildən Azərbaycan Teleradio Verilişləri Şirkətinin xor kollektivinin rəhbəri və dirijoru işləyən R.Mustafayev 250-dən artıq xalq mahnısını və təsnifi xüsusi olaraq xor üçün işləyir. Bəstəkarın oratoriyaları, kantataları və vokal-simfonik poemaları, süitaları, xor üçün 10 mahnıdan ibarət silsilə və başqa əsərləri məhz bu kollektivin və simfonik orkestrin, solistlərin ifasında lentə yazılaraq Teleradio Verilişləri Şirkətinin fonduna daxil edilir. R.Mustafayev 500-ə qədər mahnı və romansın, 200-dən artıq xalq mahnısının xor üçün işləmələrinin müəllifidir. Bəstəkarın yaradıcılığında simfoniyaları ilə yanaşı mahnı və romansları da mühüm yer tutur. Bəstəkarın mahnı və romanslarını respublikamızın tanınmış müğənniləri oxuyurlar. Lakin o, xoşbəxt adamdır ki, onun mahnı və romanslarından 12-sini məhz görkəmli müğənnimiz Rəşid Behbudov ilk dəfə oxuyub və onlara sözün həqiqi mənasında "möhür" vurub. Həmin əsərlər radionun Qızıl Fonduna daxil edilib. Bəstəkarın, müxtəlif şairlərin sözlərinə yazdığı vokal nümunələri, həmçinin Şövkət Ələkbərova, Nəzakət Məmmədova, Anatollu Qəniyev, Gülağa Məmmədov kimi unudulmaz ifaçıların repertuarında səslənərək xalqın sevimli nəğmələrinə çevrilib və bugünkü ifaçılarımız üçün də gözəl repertuardır. Bəstəkarın "Bakının ulduzları", "Yadıma sən düşürsən", "Mən Bakı fəhləsiyəm", "Gülnarə", "Sənin gözlərin", "Qızıl əllər", "Məlahət sultanıdır", "Qafqaz", "Bir kəlmədən incidi o" və s. kimi ürəyəyatımlı mahnı və romansları bu gün də məmnunluqla dinlənilir.

R.Mustafayev Azərbaycan televiziyası və radiosundakı fəaliyyəti haqqında deyərmiş: "Mən 1946-cı ildə radioda işə başlamışam. Sonra Azərbaycan Televiziyası yarandı. Burada ilk musiqi baş redaktoru vəzifəsi mənə həvalə olundu. 1958-ci ildən bu günə qədər (2008-ci ilədək) Azərbaycan televiziyası və radiosunu xor kollektivinin bədii rəhbəri və baş dirijoru işləyirəm. Bu məsuliyyətli işi layiqincə yerinə yetirməyə çalışmışam".

Bəstəkarlar İttifaqının katibi Ramiz Zöhrabov həmkarını xoş xasiyyətə, nəcib, insani keyfiyyətlərə malik insan kimi xatırlayırdı: "O, çox zaman müxtəlif müşavirələrdə, dövri mətbuatda, televiziya ekranlarında, radio dalğalarında açıq şəkildə irad və təkliflərini, tənqidi qeydlərini bildirir. Əlbəttə, onun xasiyyətində olan bu məziyyət bəzilərinin xoşuna gəlmir, onlarda inciklik hissləri oyadırdı. Bu da təbiidir. Əksər insanlar tənqidi süni surətdə şəxsi münasibətlərlə, bəzən qərəzlə bağlayırlar. Lakin Ramiz Mustafayevin obyektiv tənqidi əsas etibarilə öz bəhrəsini də verirdi..."

### ÖMÜR KİTABININ SƏHİFƏLƏRİ

"Sənətin keşməkeşli yolları var. Əsil sənətkar odur ki, bu yolda bütün çətinliklərə sinə gərsin. Ramiz Mustafayev məhz belə fədakar sənətkarlardandır"- deyə musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı məqaləsində Ramiz Mustafayevin həyat yolu, fəaliyyəti ilə gərəkli bir ömür yaşadığını qeyd edir: "Ramiz Mustafayevin ömür kitabının səhifələri onun ürəyindən süzülüb gələn musiqi sədaları ilə ipə-sapa düzüldü. O, əsil vətəndaş ömrü yaşadı. Belə ki, görkəmli bəstəkar, dirijor, pedaqoq və ictimai xadim kimi geniş fəaliyyəti ilə Ramiz Mustafayev ümumazərbaycan mədəniyyətinin inkişafında müstəsna rol oynayıb. Məhz bu xidmətlərinə görə də o, bu gün yaddaşlarda unudulmaz sənətkar kimi qalıb. Hərdən düşünürəm, yaxşı ki, biz də belə sənətkarların müasirləriyik. Məsələn elə Ramiz Mustafayev kimi. O, dahi Üzeyir bəyi görmüş, onun sənət dünyasından ruhlanmış və bütün yaradıcılığı boyu bu böyük dühanın irsinə sadiq qalmışdır. Odur ki, o, bizim üçün Üzeyir bəyin canlı yadigarı idi. Ramiz Mustafayev çox emosional, maraqlı bir insan idi. Onun təbiətində bir çılğınlıq vardı. Sanki daim sənətlə, insanlarla, bir sözlə, həyatla yaxşı mənada mübarizədə idi. Bəlkə elə buna görədir ki, erkən yaşlarından sənətin müxtəlif istiqamətlərinə qədəm qoymuş və öz mübarizliyi sayəsində hər sınaqdan alnıaçıq, üzüağ çıxaraq, pillə-pillə sənətin zirvəsinə doğru addımlayıb o yüksəkliyi fəth etmişdi. Bu da Ramiz Mustafayevin sənət dünyasıdır ki, indi biz həmin dünyaya səyahət edir və ondan bəhrələnirik". Sənətşünas qeyd edir ki, öz yolu, öz dəsti-xətti, özünəməxsus düşüncə tərzi, həyat amalı olan bir sənətkar kimi R.Mustafayevin yazıb-yaratdığı əsərlər musiqi xəzinəmizi zənginləşdirməklə bərabər, həm də insanların mənəviyyatına sirayət edib: "Onunla çoxlu sayda sənət söhbətlərim, müsahibələrim olub. Bu lent yazılarının əksəriyyəti Azərbaycan Radiosunun fondunda olan verilişlərdə, bir qismi isə mənim şəxsi arxivimdə saxlanılır. Ramiz Mustafayevin irsi ifaçıların, tədqiqatçıların nəzərindən yayınmır. Nə qədər Ramiz müəllimin musiqisi səslənir, onun irsi də daim öyrənilərək nəsildən-nəslə ötürüləcək. Çünki bu irsi yaşadan və təbliğ edənlər var ". S.Təhmirazqızı görkəmli bəstəkarın əsərləri barədə yaddaşından çıxmayan sözlərini də xatırlayır: "Əsil sənətkar xalqın yaşantılarını əsərlərində işıqlandırıb, onu gələcək nəslə yadigar qoymalıdır. Çünki tarix həm də sənət əsərlərində yaşayır".

Ramiz Mustafayevin xidmətləri dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. O, "Əməkdar incəsənət xadimi", "Xalq artisti" fəxri adlarına layiq görülüb, "Şöhrət" ordeni ilə təltif olunub. Prezident təqaüdçüsü idi.

Oktyabrın 16-sı görkəmli bəstəkarın doğum günüdür. O, 82 illik ömrünün 50 ilini musiqiyə - yazıb-yaratmağa həsr etdi. Xalq üçün bir-birindən dəyərli əsərlər yadigar qoydu.

**Təranə Məhərrəmova**